# Deviant davranışla umumi sağlamlığın əlaqəsi: risk amilləri və qoruyucu amillər

**Leyla Şükürova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** leilahuseyn06@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d. R.N. Mirzəyev

**Açar sözlər:** deviant davranış, risk amili, qoruyucu amil, cinsi davranış, maddə istismarı, şiddət, ümumi sağlamlıq

**Ключевые слова:** девиантное поведение, фактор риска, защитный фактор, сексуальное поведение, злоупотребление наркотиками, насилие, общее здоровье

**Key words:** deviant behavior, risk factor, protective factor, sexual behavior, drug abuse, violence, general health

Bu məqalədə yeniyetmələrin ümumi sağlamlığı və onların inkişafı, cinsi davranış, maddə istismarı və təhlükəli sayılan şiddətli davranışla əlaqədar riskli və qoruyucu amillər barədə məlumat verilir.

Son 20-30 il içində yeniyetmələrdə sıx görülən riskli davranışlarla əlaqədar olaraq həm nəzəri, həm də empirik çox sayda araşdırma aparılmış və əhəmiyyətli biliklər əldə edilmişdir. Deviant davranışlar ümumiyyətlə bir həyat forması olaraq qarşımıza çıxır. Deviant davranışlar birbaşa və ya dolayı olaraq gənclərin səhhətinə və həyatlarına təsir edən və potensial olaraq mənfi nəticələri ola biləcək davranışlar olaraq müəyyən edilir [6]. Narkotik maddə istifadəsi, şiddət və etibarsız cinsi əlaqə yetkinlik çağında tez-tez rast gəlinən və xalq sağlamlığı problemi olaraq qəbul edilən deviant davranışlardandır. Son zamanlarda ruh sağlığı problemləri və köklük (obesite) də yeniyetmə sağlamlığını təhdid edən sahələr olaraq görülməyə başlanmışdır. Maddə istifadəsi, gəncin ailəsi ilə əlaqəsinin pozulmasına ya da qanunların pozulmasına yol aça bilər. Erkən yaşda cinsi əlaqə, istənməyən hamiləliklə və bunun nəticəsi olaraq məktəbdən ayrılma ilə və uzun vədə işsizliyə sonlana bilir. Bu səbəblə, deviant davranışlar fərdi, ictimai və inkişaf xoşa gəlməyən nəticələri olan risk faktorları olaraq da qəbul edilə bilərlər. Ancaq deviant davranışlarda tapılan mənfi, xoşa gəlməyən nəticələr heç də həmişə deviant davranış deyildir. Bu sahədə aparılan araşdırmalarda çox sayda proksimal və distal risk faktorları müəyyən olunmuşdur [1]. Ancaq yeni araşdırmalar bu risk faktorlarına məruz qalma ilə riskli davranışlar etmək arasındakı əlaqənin fərqli olduğunu göstərmişdir [4]. Başqa sözlə, eyni risk faktorlarına məruz qalan fərdlərin hamısı riskli davranışlar göstərmir. O'Conner və yoldaşları riskə cavab olan bu dəyişkənliyə riskin özü qədər əhəmiyyətli olduğuna diqqət çəkmişlər.

Tədqiqatçılar müdaxilə proqramları ilə bu sahədə sağlamlıq üzrə tədqiqatlar aparmış, riskli davranışların qarşısını almaq, gənclərin sağlam inkişafına yönəlik dəstəkləyici tədbirlər görmüşlər.

İnsanlardakı seksual anlayış xüsusi bir cinsi davranışı göstərə biləcək fiziki xüsusiyyətləri və bacarığı, psixoloji dəyərləri, normaları, münasibətləri və öyrənmələrindən başqa, həm də, davranışlarına təsir edən amilləri təşkil edir. Eyni zamanda seksuallıq, cinsi şəxsiyyəti və onunla əlaqəli cəmiyyətdə qazandığı rolu yəni, kişi və ya qadın kimi davranışa əsaslanır.

Bundan əlavə, cəmiyyətdəki seksual davranışlar genotip və fenotip kimi bioloji amillərdən təsirlənmiş davranış formalarıdır. Digər davranış formaları isə doğuşdan başlayır. Ailənin cəmiyyətdəki qadınlıq və kişiliklə əlaqəli münasibət və davranışları doğulduğu andan körpəyə proyeksiya olunur. Körpənin cinsiyyətinin təyin olunduğu gündən ailə ona cinsiyyətinə uyğun davranır və cinsinə uyğun davranış gözləyir. Bu gözləmələr və münasibətlər, əsasən onların yaşadığı cəmiyyətin mədəniyyət normalarından irəli gəlir. Bir uşağın ilkin cinsi şəxsiyyəti ailə üzvlərini müşahidə etməklə formalaşır. Qadın kimi, anasının ailəsində necə davranışı, atasının kişiliyi necə sərgilədiyi və problemləri necə həll etdiyinə diqqət edər. Ana və ya ata olmadığı halda, qadın və kişi münasibətləri, onların bir-birinə necə davranmalı olduğu uşaqlar tərəfindən çətin anlaşıla bilər. Qızlar qadın rolunu ata və ya ata rolunu üstələmiş digər biri ilə sınayırlar. Bu şansı olmadığı halda, "ata" axtarışına çıxar, riskli cinsi davranışlar sərgiləyə bilir. Həmçinin, qız ata modeli ilə qarşılaşmadığı halda onun necə cinsi davranışı sərgiləyəcəyini bilməməsinə səbəb ola bilər. Xoşbəxt və sağlam ailə mühitində böyüyən, daim izlənən, müşahidə edilən uşaq daha sağlam münasibətlər qura bilir.

Yeniyetməlik dövründə uşaqlar cəmiyyət mədəniyyətindən çox təsirlənir. Mədəniyyət qadınlar və kişilər üçün yaxşı müəyyən edilmiş və ya yaxşı müəyyən edilməmiş rollar yükləyə bilər. Qadınlıq və kişilik rollarının yaxşı müəyyənləşdirilmədiyi cəmiyyətlərdə yeniyetmələrə, daha çox seçim haqqı, daha az rəhbərlik şansı düşür. Bəzi hallarda mədəniyyət toplumun hər hissəsində vahiddir, lakin bəzi hallarda vahid deyildir. Eyni cəmiyyətdə fərqli mədəni normalar, fərqli seksual normalar yeniyetmələrdə deviant davranışa səbəb olur. Bu mənada, medianın rolu çox vacibdir. Gənc ailə bu barədə çox aydın mesajlar əldə edərsə, medianın təsiri balanslaşdırıla bilər. Ancaq ailələrin bir çoxu uşaqlarını cinsi tərbiyəsi ilə bağlı çətinliklər yaşayırlar və dost qruplarını və medianı əsas məlumat mənbələri kimi rol modeli təyin edirlər. Cinsi yetkinlik dövründəki dəyişikliklərlə maraqlanmaq yeniyetmələr üçün normal bir davranışdır. Sağlam cinsi inkişaf fiziki və emosional inkişafın bir parçası olmalıdır. Bioloji və ətraf mühit faktorları sağlam seksual qavrayışın və davranış seçimlərinin sağlam inkişafının təməlidir. Yeniyetmələrin cinsi davranışları, erkən cinsi münasibətə başlamalarına, istənməyən hamiləliklərə və cinsi yolla ötürülən xəstəlik kimi mənfi nəticələrə gətirib çıxara bilər.

Narkotik maddə istifadəsi, yeniyetmənin cinsi davranışı ilə əlaqəli fərdi risk faktorudur. Özünəinam, məktəbdənkənar fəaliyyətlərdə iştirak, məktəb sevgisi və akademik müvəffəqiyyət, dini inanclar, reproduktiv sağlamlıq və cinsi yolla keçən xəstəliklər haqqında məlumatlar, normal davranışa və narkotik maddənin istifadəsinə, erkən cinsi əlaqəni rədd etmə qabiliyyətinə təsir edən qoruyucu faktorlardır. Yeniyetmələr və ya gənclər narkotik maddəni çox müxtəlif səbəblərdən istifadə edirlər. Yeniyetməliyin hədəfi güclü şəxsiyyət yaratmaqdır. Bu səbəbdən, yeniyetmə öz azadlığını sübut etmək üçün narkotik maddə istifadə edə bilər. Yeniyetmə yetkin həyat tərzini təqlid etmək üçün, bu dövrdə qarşılaşdığı çətinliklərlə üzləşmək üçün, sosial yönümə uyğunlaşmaq, dostları tərəfindən qəbul edilmək üçün, hətta medianın təsiri ilə belə narkotik maddə istifadə edə bilər. Bundan əlavə, valideynlər özü narkotik maddə istifadə etdiyi halda, narkotik yeniyetməyə bunu qadağa edərkən inandırıcı olmaya bilər. Birinci dərəcəli və ya da ikinci dərəcəli qohumlardan gen vasitəsilə alkoqolizm keçici ola bilir [3; 5].

Deviant davranışlar arasında hiperaktivlik, qısa müddətli diqqət, işin tamamlanmasında çətinlik, həssaslıq, aqressivlik, ictimai davranış və sosial çətinliklər kimi fərdi xüsusiyyətlər göstərilir [2]. Qoruyucu amillər arasında kəşfiyyat, dindarlıq, özünə etibar, özünə hörmət, akademik müvəffəqiyyət, ictimai əlaqələrdə bacarıq və həyata pozitiv baxış qabiliyyəti vardır.

Ekoloji risk faktorları arasında ailənin rolu böyükdür. Valideynlərin narkotik maddə istifadəsi zamanı, ailə daxili şiddət və uşaq istismarı, avtoritar ailə quruluşu, yeniyetmənin davranışının ailə tərəfindən yoxlanılmaması və müvafiq rəhbərliyin olmaması, tək valideynlə yaşamaq və narkotik maddəni asanlıqla əldə etmək, ailə risk faktorları arasında sayıla bilər. Ətraf mühitin qoruyucu amillərindən biri ailədir. Güclü ailə əlaqələri, ailənin yeniyetməni akademik müvəffəqiyyətlər üçün dəstəkləməsi, yeniyetməni müşahidə etməsi, ona rəhbərlik və daimi ünsiyyət onları deviant davranış risklərindən qoruya bilər.

Yeniyetməlik dövründə uşaqlar ailəsindən uzaqlaşır və yaşıdları ilə daha çox vaxt keçirirlər, özlərini cəmiyyətə qəbul etdirməyə çalışırlar. Bu səbəblə narkotik maddə istifadə edə bilirlər. Sosial risk faktorları arasında narkotik maddələri rahat əldə etmək, əxlaq quruluşu, gəncin yaşadığı məhəllədə narkotik maddə istifadəsi, işsizlik, yoxsulluq, yaşayış mühitində cinayət, bəzi submədəniyyət qrupları və media vardır.

Şiddət dünyanın hər yerində geniş yayılmışdır və bəzən erkən ölüm və ya digər faktorlarla əlaqələndirilir. Şiddət ilk növbədə ictimai səhiyyə problemidir. Şiddətli davranış çox sayda bioloji, genetik, ekoloji və psixoloji faktorlarla əlaqələndirilir. Nəticədə, insanlar arasında zorakılığın mümkün bir izahı yoxdur, şiddət bir faktorla deyil bir çox amillərlə fərqli ölçülərdə qarşılıqlı əlaqədədir. Yetkinlik dövründə zorakı davranışlar və cinayətlərin kökündə əhəmiyyətli sayda yeniyetməlik dövründəki şiddətli davranışlar yatır. On üç yaşından əvvəl şiddətli davranışlara başlayan, yeniyetmələr yetkin yaşlarda deviant davranışlara daha çox meyilli olurlar. Bu cür şiddətli davranışlar, on beş yaşından on altı yaşa qədər görüldüyü zaman isə, yetkinlərdə əsasən həmyaşıdları ilə birlikdə olduğu zamanlarda görüləcəkdir. Yeniyetmələrin həyatında şiddətin tezliyini müəyyən edən beş mühüm amil şiddətə məruz qalma, silah daşıma, zorbalıq və ya zorakı davranışlar, sosial şəbəkələr və narkotik maddə istifadəsidir.

**Məqalənin aktuallığı.** Deviant davranışın ətraflı təhlili ümumi sağlamlığa onun təsirinin anlaşılması baxımından çox böyük elmi-nəzəri və praktik aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə deviant davranışla umumi sağlamlığın əlaqəsi riskli və qoruyucu amillər fonunda təhlil olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Riskli və qoruyucu amillərin fərqləndirilməsi deviant davranışın profilaktikasında önəmli perspektivlər açmış olur.

## Ədəbiyyat

1. Jessor R. New perspectives on adolescent risk behavior. Cambridge university pres, UK, 1998.

2. Brown RT. Adolescent sexuality at the dawn of the 21st century. Adolesc med, 2000.

3. Duncan P, Dixon RR, Carlson J. Childhood and adolescent sexuality. Pediatr Clin N Am, 2003.

4. Fergus S, Zimmerman MA. Adolescent resillience: Aframework for understanding healthy development in theface of risk. Annu Rev Public Health, 2005.

5. Bernat DH, Resnick MD. Healthy youth development. science and strategies. J Public Health Management Practice, 2006.

6. Burt MR. Reasons to invest in adolescents. J Adolesc Health, 2002.

**Л. Шукюрова**

## Связь между девиантным поведением и общем здоровьем: факторы риска и защитные факторы


## Резюме

В этой статье представлена информация об общем здоровье и развитии подростков, рискованных и защитных факторах, связанных с сексуальным поведением, злоупотреблением психоактивными веществами и тяжелыми поведенческими расстройствами.


**L. Şhukurova**

## Relation between deviant behavior and general health: risk factors and protective factors


## Summary

This article provides information about general health and development of adolescence, sexual behavior, drug abuse, substance abuse, risk and protective factors.


**Redaksiyaya daxil olub:** 07.03.2018